*Layihə*

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**

**№ ____**

Bakı şəhəri «    » ____________ 201_-ci il

# Əqli mülkiyyət sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiyanın yaradılması haqqında

Müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqlarının pozulması hallarına qarşı mübarizənin səmərəliliyinin artırılması və bu sahədə aidiyyəti dövlət orqanları arasında fəaliyyətin əlaqələndirilməsi məqsədi ilə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1079-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 1188 nömrəli Sərəncamının 1.3-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Əqli mülkiyyət sahəsində piratçılığa qarşı mübarizə üzrə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

______________ - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiya sədrinin müavinləri**

Kamran İmanov - Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri

Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri

**Komissiyanın üzvləri**

Xudayət Həsənli - Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi Əsərlərin qeydiyyatı və hüquq şöbəsinin müdiri

Natiq Hüseynov - Azərbaycan Respublikası Baş Prokurorluğu Hüquqi təminat və informasiya idarəsinin rəisi, baş ədliyyə müşaviri

| | |
|---|---|
| Rauf Məmmədov | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəis müavini |
| Faiq Şahbazlı | - Azərbaycan Respublikası Təhsil Nazirliyi Dərslik və nəşriyyat şöbəsinin müdiri |
| Bəxtiyar Məmmədov | - Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Hüquq və kadrlar şöbəsinin müdiri |
| Müşfiq Hətəmov | - Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Kinematoqrafiya şöbəsinin müdir müavini |
| Azər Məmmədov | - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı |
| Hafiz Məmmədov | - Azərbaycan Respublikası Vergilər Nazirliyi Vergi siyasəti və strateji araşdırmaları baş idarəsinin Vergi siyasəti idarəsinin qanunvericiliyin monitorinqi və təkmilləşdirilməsi şöbəsinin baş dövlət vergi müfəttişi |
| Selcan Verdiyeva | - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsinin attaşesi |
| Ağaverdi Xəlilov | - Azərbaycan Milli Elmlər Akademiyası AMEA-nın Folklor İnstitutunun şöbə müdiri |

**Komissiyanın məsul katibi**

____________________ - ____________________________________________

2. Əqli mülkiyyət sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

*Layihə*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 201_-ci il ______ tarixli ____ nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Əqli mülkiyyət sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Əqli mülkiyyət (müəlliflik hüququ, əlaqəli hüquqlar, məlumat toplularına, inteqral sxem topologiyalarına və folklor nümunələrinə olan hüquqlar) sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiya (bundan sonra **"Komissiya"**) müəllif-hüquq məsələləri ilə bağlı hüquqpozmaların qarşısının alınması və bununla əlaqədar tədbirlərin görülməsi barədə əsaslandırılmış təkliflərin hazırlanması üçün yaradılmışdır.

1.2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Komissiya Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və xüsusi blanka malikdir.

## 2. Komissiyanın vəzifələri

Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasının ərazisində piratçılığa qarşı mübarizə sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı işlərin əlaqələndirilməsini təmin etmək;
- Müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərindən, məlumat toplularından, inteqral sxem topologiyalarından, folklor nümunələri və digər qeyri-maddi irs nümunələrindən qeyri-qanuni istifadə hallarının qarşısının alınmasında müvafiq icra hakimiyyəti orqanlarının, qeyri-hökumət təşkilatlarının, müəllif cəmiyyətlərinin və yaradıcılıq birliklərinin səmərəli əməkdaşlığı üçün tədbirlər görmək və təkliflər hazırlamaq;
- Müəllif-hüquq sahəsində qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının tələblərinə uyğunlaşdırılması məqsədi ilə təhlillər aparmaq və nəticələrə uyğun olaraq aidiyyəti dövlət orqanlarına təkliflər vermək;
- Bu Əsasnamə ilə Komissiyaya həvalə edilmiş vəzifə və funksiyaların yerinə yetirilməsi istiqamətində görülən işlər, qanunvericilik və beynəlxalq əməkdaşlıq barədə elektron məlumat bazası yaratmaq və onu daim yeniləşdirmək;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Komissiyanın vəzifələrinə aid edilən digər işləri yerinə yetirmək;
- Müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq təşkilatlarla və xarici ölkələrin səlahiyyətli orqanları ilə əməkdaşlıq etmək.

## 3. Komissiyanın funksiyaları

Komissiya bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində aşağıdakı funksiyaları həyata keçirir:

- Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərin, digər kateqoriyadan olan qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə əsərlərdən, müəlliflik hüququ, əlaqəli hüquqlar obyektlərindən, Azərbaycan folkloru nümunələri, inteqral sxem topologiyaları və məlumat toplularından istifadənin qanuniliyinin müəyyənləşdirilməsi məqsədi ilə qanunvericilikdə nəzərdə tutulan qaydada monitorinqlər keçirir, müşahidə edilən faktlar əsasında vəziyyəti təhlil edir və nəticələrə uyğun olaraq aidiyyəti orqanlar tərəfindən tədbirlərin görülməsi üçün təkliflər hazırlayır;
- Hüquqların qorunması üzrə prioritet fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində iştirak edir;
- Piratçılığa qarşı mübarizə sahəsində maarifləndirmə işləri aparır;
- Sahə üzrə hüquq pozuntularına qarşı mübarizənin səmərəliliyinin artırılması üçün ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, koordinasiyanın təşkili, beynəlxalq təcrübənin öyrənilməsi, təcrübə və informasiya mübadiləsinin həyata keçirilməsi və mütəxəssislərin ixtisaslarının artırılması üçün təkliflər hazırlayır;
- Milli müəllif-hüquq sisteminin daha da gücləndirilməsinə və kadrların peşəkarlığının artırılmasına kömək məqsədi ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Akademiyası, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Katibliyi və Ümumdünya Ticarət Təşkilatının Katibliyi ilə əməkdaşlıq edir.

## 4. Komissiyanın hüquqları

Komissiyanın aşağıdakı hüquqları vardır:

- Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarından, təşkilati-hüquqi formasından asılı olmayaraq bütün aidiyyəti təşkilatlardan öz səlahiyyətlərinə aid olan məsələlər üzrə müvafiq məlumatlar almaq;
- Zəruri hallarda Komissiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələrini və mütəxəssisləri dəvət etmək;
- Komissiyanın vəzifə və funksiyaları daxilində ayrı-ayrı məsələlərin öyrənilməsi və ya layihələrin işlənməsi üçün dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, alimlərdən və mütəxəssislərdən ibarət ekspert və ya işçi qrupları yaratmaq;
- səlahiyyətlərinə aid olan məsələlər üzrə iclaslar, görüşlər, konfranslar, seminarlar və brifinqlər keçirmək.

## 5. Komissiyanın fəaliyyətinin təşkili

5.1. Komissiyanın tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Komissiya öz fəaliyyətini Komissiyanın iclasında təsdiq edilmiş iş planına uyğun

olaraq həyata keçirir. Komissiya üzvləri iş planı üzrə Komissiyanın iclaslarının gündəliyinin və materiallarının, həmçinin Komissiyanın qərar layihələrinin hazırlanmasında iştirak edirlər.

Komissiya ictimai əsaslarla fəaliyyət göstərir və görülən işlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat verir.

5.2. Komissiyaya onun sədri rəhbərlik edir.

Komissiyanın sədri:

- Komissiyanın iclaslarına sədrlik edir;

-daxil olan təklifləri nəzərə almaqla Komissiyanın iclaslarının gündəliyini müəyyənləşdirir;

- Komissiyanın qərarlarını imzalayır;

- müvafiq orqan və təşkilatlarda Komissiyanı təmsil edir;

- Komissiyanın qərarlarının icrası ilə əlaqədar müvafiq orqanlara, təşkilatlara, idarələrə müraciət edir.

5.3. Komissiyanın iclasları üç ayda bir dəfədən az olmayaraq keçirilir.

Komissiyanın iclası onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətli sayılır.

5.4. Komissiyanın iclasında Komissiya üzvü özü şəxsən iştirak etməlidir, iclaslarda onun əvəz edilməsinə yol verilmir.

5.5. Komissiya üzvü üzrlü səbəblərdən Komissiyanın işində iştirak edə bilmədikdə iclasda müzakirə olunan məsələlər barədə yazılı rəyini bildirmək hüququna malikdir.

5.6. Komissiyanın qərarları iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, komissiya sədrinin səsi həlledici hesab olunur. Komissiyanın qərarları iclasda iştirak etmiş bütün komissiya üzvləri tərəfindən imzalanır. Komissiyanın iclasında qəbul olunan qərarlarla razı olmayan komissiya üzvü öz imzası qarşısında qeyd etməklə xüsusi rəyini əlavə edə bilər.

5.7. Komissiya üzvləri arasında iş bölgüsü Komissiyanın qərarı ilə aparılır.

5.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Komissiya ləğv edilə və ya onun fəaliyyəti dayandırıla bilər.

5.9. Komissiyanın məsul katibi Komissiyanın iclaslarının keçirilməsini təşkil edir, iclasın gündəliyini hazırlayır, növbəti iclas barədə Komissiya üzvlərini məlumatlandırır, iclasın protokolunu tərtib edir və Komissiyanın fəaliyyəti ilə bağlı Komissiya sədrinin və onun müavinlərinin tapşırıqlarını yerinə yetirir.

Məsul katibin funksiyalarının həyata keçirilməsi ilə bağlı məsələlər Komissiya sədrinin təmsil etdiyi orqan tərəfindən təmin edilir.